**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

# 6117.01 – "Hüquqi psixologiya" ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında doktorluq imtahanı üçün

# PROQRAM

Bakı Dövlət Universiteti Sosial elmlər və psixologiya fakültəsinin Elmi Şurasının qərarı ilə tövsiyyə edilmişdir
(02 oktyabr 2012-ci il 1 saylı protokol)

**Bakı-2012**

**Tərtib edənlər:** dosent, psixologiya üzrə fəlsəfə doktoru Aydan Səməndərova

**Elmi redaktor:** AMEA-nın müxbir üzvü, professor, psixologiya elmləri doktoru Bəxtiyar Əliyev

## I BÖLMƏ. HÜQUQ PSİXOLOGİYASININ ÜMUMİ MƏSƏLƏLƏRİ

**Mövzu 1. Hüquq psixologiyasının mövzusu, vəzifəsi və metodları**

Hüquq psixologiyasının mövzusu. Hüquq psixologiyasının sistemi: ümumi hissə və xüsusi hissə. Hüquq psixologiyasının elmlər sistemində yeri.

Hüquq psixologiyasının inkişaf mərhələləri: 1) XIX əsrin əvvəlləri; 2) XIX əsrin sonu XX əsrin əvvəlləri; 3) XX əsrin ortaları.

Hüquq psixologiyasının metodoloji əsasları. Tədqiqat üsulları və onların təsnifatı. Hüquq psixologiyası sahəsindəki nəzəriyyələrin tənqidi təhlili.

**Mövzu 2. Hüquq fəaliyyətinin psixologiyası**

Hüquq əməyi psixologiyasının mövzusu və vəzifələri. Müstəntiqin professioqramasının strukturu. Hüquq peşələrinin professioqrammasının tərtibi. Hüquqşünaslıq fəaliyyəti və ona verilən tələblər. Hüquqşünas fəaliyyətinin səmərəliliyi və əsas meyarları. İş yeri, onun təşkili və erqonomik tələbləri. Hüquq-mühafizə fəaliyyətinin sosial-psixoloji xarakteristikası. Hüquqşünas şəxsiyyətinin psixologiyası. Hüquqşünasın peşə fəaliyyətində ünsiyyət.

## II BÖLMƏ. KRİMİNAL PSİXOLOGİYA

**Mövzu 3. Cinayətkarın şəxsiyyətinin psixologiyası**

Cinayətkarın şəxsiyyəti anlayışı. Cinayətkarın şəxsiyyətinin təşəkkülünün əsas amilləri. Cinayətkarın şəxsiyyətinin strukturu.

Şəxsiyyətin hüquqi sosializasiyası. Hüquqi şüur və cinayət şüuru anlayışları. Cinayətkar şəxsiyyətin sərvət dəyərləri və motivasiya sistemi.

Cinayətkar şəxsiyyətin tədqiqi üsulları. Cinayətkar şəxsiyyətin tipologiyası. Cinayətkar şəxsin psixoloji əlamətləri. Ehtiyatsızlıqdan cinayət törətmiş şəxsiyyətin psixoloji xüsusiyyətləri.

Cinayət və cinayətkar anlayışlarının psixoloji mahiyyəti. Cinayətkarlığın sosioloji, sosial-psixoloji, psixoanalitik, kriminoloji və s. nəzəriyyələrinin tənqidi təhlili.

**Mövzu 4. Cinayətin psixolojı təhlili**

Hüquqi və qeyri-hüquqi davranış. Cinayi davranışın tipologiyası. Cinayi davranışın obyektiv və subyektiv amillərinin qarşılıqlı təsiri. Cinayi davranışın sosial-psixoloji səciyyəsi.

Cinayi davranışın motivi və məqsədi. Cinayi davranışın hüquqi və psixoloji motivlərinin tipologiyası. Cinayətkar davranış qəribliyin, təkliyin həyata keçirilməsi mexanizmi kimi. Narahatlıq cinayi davranışın əsası kimi. Narahatlığın amilləri.

Müasirlik və onun psixologiyası. Qərar qəbulunun psixoloji əsasları. Tranzitiv və qeyri-tranzitiv qərar. Cinayətin törədilmə şəraiti, səbəbi və vasitələri. Normadan kənara çıxan davranış və cinayət.

**Mövzu 5. Qrup tərəfindən törədilmiş cinayətin və mütəşəkkil cinayətkarlığın psixologiyası**

Qrup və cinayətkar qrupun təşəkkülünün sosial-psixoloji xüsusyyətləri. Cinayətkar qrupun dinamik prosesləri. Cinayətkar

qrupun strukturu. Cinayətkar qrupda rol, mövqe və gözləmələr, onların ierarxiyası. Qrup və lider. Cinayətkar qrupa rəhbərliyin psixoloji əsasları.

## III BÖLMƏ. İBTİDAİ İSTİNTAQIN PSİXOLOJİ ƏSASLARI

### Mövzu 6. İstintaq fəaliyyətinin psixoloji əsasları

İstintaq fəaliyyətinin psixoloji xüsusiyyətləri. Müstəntiqin şəxsiyyəti və idrak fəaliyyəti. Müstəntiqin kommunikativ fəaliyyətinin psixologiyası. İstintaq fəaliyyətinin planlaşdırılmasının psixoloji cəhətləri.

Cinayəti açmanın psixoloji cəhətləri. Cinayətin ideal və maddi izləri onun açılmasının məlumat mənbəyi kimi.

Problem-axtarış şəraitinin psixoloji səciyyəsi. Problem-axtarış şəraitinin tipləri. Cinayətin ehtimal məlumat-məntiqi modelinin təşəkkülü.

### Mövzu 7. Hadisə yerinə baxışın psixologiyası

Qavrayışın məqsədyönlülüyü və hadisə yerinə baxış zamanı müstəntiqin fikri fəaliyyətinin xüsusiyyətləri. Cinayətin maddi izlərinə əsasən cinayətkarın şəxsiyyətinin xüsusiyyətlərinin, məqsədinin, motivinin və cinayəti törətmə vasitələrinin müəyyən edilməsi. Cinayət hadisəsinin fikri rekonstruksiyası. Cinayətin izlərinin maskirovka və demaskirovkasının psixoloji xüsusiyyətləri.

### Mövzu 8. Axtarışın psixologiyası

Gizlədənin və axtaranın psixologiyası. Müstəntiqin müxtəlif şəraitdəki axtarış fəaliyyətinin əsasları. Mənzilində və digər yerdə

axtarış aparılan şəxsin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması. Axtarış aparılacaq yerdə əvvəlcədən aparılan hərəkətlərin psixoloji əhəmiyyəti. Müstəntiqin və axtarış aparılan şəxsin müşahidəçiliyi. Axtarış aparılan şəxsin axtaranın hərəkətlərinə reaksiyasının axtarılan predmetin aşkar edilməsində istifadəsinin psixoloji əsasları. Axtarış aparılan şəxsin davranışının axtarışın istiqamətinin müəyyənləşdirilməsində əhəmiyyəti.

**Mövzu 9. Dindirmənin və üzləşdirmənin psixologiyası**

Yaddasaxlamanın, yadasalmanın, unutmanın və qavrayışın xüsusiyyətləri, onların ifadənin doğruluğuna və tamlığına təsiri. Dindirilən şəxsin fərdi-tipoloji xüsusiyyətlərinin və ümumi psixoloji qanunauyğunluqlarının nəzərə alınması.

İfadələrin dürüstlüyünün qiymətləndirilməsi və məhkəmə-psixoloji ekspertizasının burada yeri və əhəmiyyəti.

Təqsirləndirilənin və şübhəli şəxslərin dindirilməsinin psixoloji xüsusiyyətləri. Təqsirləndirilənin və şübhəli şəxslərin psixi xüsusiyyətləri haqqındakı məlumatdan istifadə edilməsi. Dindirilən şəxsin müdafiə dominantı. Təqsirləndirilənin müqavimət göstərdiyi şəraitdə dindirmənin psixoloji xüsusiyyətləri. Dindirilən şəxsin psixi vəziyyətinin dinamikasının öyrənilməsi və istifadə edilməsi. Dindirmə zamanı psixi təsir vasitələrindən istifadə edilməsi.

Zərərçəkmişin dindirilməsinin psixoloji xüsusiyyətləri. Zərərçəkmişın cinayət əməli törədilən andakı vəziyyət və davranışının

aşkar edilməsi. Zərərçəkmişin törədilmiş cinayətə münasibətinin və təsəvvürlərinin şüurda rekonstruksiyasının psixoloji xüsusiyyətləri. Zərərçəkmişin fərdi-psixoloji xüsusiyyətləri.

Yetkinlik yaşına çatmamış zərərçəkmişin dindirilməsinin psixoloji xüsusiyyətləri. Şahidlərin dindirilməsinin psixoloji xüsusiyyətləri. Şahidlərin sensor-perseptiv, mnemik və fikri fəaliyyətinin fərdi tipoloji və yaş xüsusiyyətləri. Şahidin psixi inkişaf səviyyəsinin nəzərə alınması. “Psixi” və “fiziki” çatışmazlıq anlayışının psixoloji mahiyyəti və şahidlərin dindirilməsində nəzərə alınması. Yetkinlik yaşına çatmamış şahidlərin dindirilməsinin psixoloji xüsusiyyətləri. Şahid ifadələrinin formalaşması mərhələləri. Şahid ifadələrinin dindirilmə zamanı protokollaşdırılmasının psixoloji xüsusiyyətləri.

Üzləşdirmənin psixologiyası.Üzləşdirmə dürüst ifadə almaq məqsədi ilə dindirilənlərin qarşılıqlı psixi təsirinin təşkili kimi. Üzləşdirmə zamanı “konflikt şərait” və onun istifadə edilməsi və tənzimi. Üzləşdirmə iştirakçılarının davranışının müşahidə edilməsi, üzləşdirmə zamanı dindirilənlərin qarşılıqlı münasibətlərinin və psixi xüsusiyyətlərinin nəzərə alınması. Üzləşdirmə zamanı dindirilənlərin bir-birinə psixi təsirinin aradan qaldırılması yolları.

**Mövzu 10. Tanımanın psixologiyası**

Tanımaya təqdim etmə müxtəlif şəxslərin və maddı obyektlərin identifikasiyası üçün təqdim edilməsindən ibarət istintaq hərəkəti kimi. Tanıma təqdim edilmiş obyektin əvvəllər

yaranmış psixi obrazla tutuşdurulması prosesi və nəticəsi kimi. Tanımanın psixologiyası. Ümumi və differesial, simultan və suqsessiv tanıma. Predmetlərin və onların təsvirinin tanınması.

İnsanın və onun fotoşəklinin qavranılmasının və tanınmasının xüsusiyyətləri. Yanlış tanımanın tipik səhvləri. Yanlış tanımanı aradan qaldırmanın yolları və tanımanı təsdiq etmə şəraitinin psixoloji xüsusiyyətləri. Qəsdən tanıma və onun aşkar edilməsi.

**Mövzu 11. İstintaq eksperimentinin psixologiyası**

İstintaq eksperimenti iştirakçılarının psixi xüsusiyyətlərinin müəyyən edilməsi. Insanın psixolojı imkanlarına təsir göstərən halların (adaptasiya, sensibilizasiya, desensibilizasiya, stenik və astenik emosiyalar, qavrayışın akonstantlığını əmələ gətirən amillərin) nəzərə alınması.

İstintaq eksperimenti vasitəsi ilə yoxlanılan və hərəkətlərdə təzahür edən qabiliyyətlərin, bilik, bacarıq və vərdişlərin müəyyən edilməsi.

**Mövzu 12. İfadənin yerində yoxlanılmasının psixologiyası**

İfadəsi yoxlanılan şəxsin topoqrafik təsəvvürünün məkan bələdliyinin statistik və dinamik qlazomerin müəyyən edilməsi. Mnemik fəaliyyətin fəallaşdırılması. Baş vermiş hadisələrin ardıcıllığının rekonstruksiyası üçün hadisə yerinin ardıcıllığının rekonstruksiyası üçün hadisə yerinin “dayaq məntəqələrinin” istifadə edilməsi.

**Mövzu 13. Məhkəmə-psixoloji ekspertizası**

Məhkəmə-psixoloji ekspertizasının predmeti, obyekti və vəzifələri. Məhkəmə-psixoloji ekspertizasinin tədqiqat prinsipləri və metodikaları, xüsusi psixoloji biliklərin hüquq praktikasında tətbiqi formaları. Ekspert rəyi və onun sübuti əhəmiyyəti. Məhkəmə-psixoloji ekspertizasının səlahiyyətləri. Məhkəmə-psixoloji ekspertizasının təyin edilməsinin əsasları, təşkili və keçirilməsi. Məhkəmə-psixoloji ekspertizasının profilaktik əhəmiyyəti.

## IV BÖLMƏ. MƏHKƏMƏ FƏALİYYƏTİNİN VƏ MƏHKƏMƏ İCRAATI İŞTİRAKÇILARININ PSİXOLOGİYASI

**Mövzu 14. Məhkəmə araşdırmasının psixoloji əsasları**

Məhkəmə istintaqı prosesində sübutların tədqiqinin psixoloji əsasları. Məhkəmə araşdırmasının mərhələlərinin psixoloji səciyyəsi. Müttəhimin şəxsiyyətinin xüsusiyyətlərinin və cinayət hadisəsinin psixoloji cəhətlərinin müəyyən edilməsində məhkəmənin fəaliyyəti.

Prokurorun məhkəmədəki fəaliyyətinin psixologiyası. Prokurorun nitqi. Vəkilin məhkəmədəki fəaliyyətinin psixologiyası və onun nitqinin xüsusiyyətləri.

Təqsirləndirilənin psixoloji xarakteristikası. Təqsirləndirilənin son sözü.

Hökmün çıxarılmasının psixologiyası. Hökmün obyektivliyinə təsir göstərən psixoloji amillərin aradan qaldırılması. Cinayi

davranışın qiymətləndirilməsinin psixoloji əsasları və cəzanın təyin edilməsi.

**Mövzu 15. Hakimin, dövlət ittihamçısının və vəkilin professio-nal-psixoloji**

**xüsusiyyətləri**

Hakimin, ittihamçının və vəkilin fəaliyyətinin kommunikativ və idraki cəhətləri. Hakimin, ittihamçının və vəkilin şəxsi keyfiyyətləri və təfəkkürünün xüsusiyyətləri.

## BÖLMƏ V. İSLAH (PENİTENSİAR) PSİXOLOGİYA

**Mövzu 16. Məhkumun psixologiyası və resosializasiyasının vəzifələri**

Məhbusun şəxsiyyəti və onun psixoloji xüsusiyyətləri. Cina-yətkarın islah edilməsi onun şəxsiyyətinin strukturunun yenidən qurulması kimi.

Məhbusların yenidəntərbiyə və islahedilmə yolları. Məhbus özünütərbiyəsinin psixologiyası. Məhbuslara psixoloji təsir üsulları. Davranışın asosial stereotiplərinin aradan qaldırılması. İslah müəssisələrinin fəaliyyətinin əsasları.

**Mövzu 17. Məhbusların və cəzasını çəkmişlərin şəxsiyyətinin resosializasiyasının vasitələri və psixoloji şərtləri**

Tərbiyəvi təsirlərin təşkili zamanı məhbusun sosial mövqe-yinin nəzərə alınması. Tərbiyəçi və məhbus arasındakı “psixoloji

maneənin” aradan qaldırılması. Məhbusların əməyinin təşkilinin psixoloji əsasları. Məhbuslar kollektivinin psixoloji səciyyəsi. Məhbus qrupunun strukturu və funksional təşkili. Qrupdaxili norma və dəyərlərin təşəkkülü.

Məhbusların emosiya və hissləri. İradə və onun məhbuslarda təşəkkülünün psixoloji əsasları. Məhbusların psixi vəziyyəti. Məhkumların azadlıqda yaşamağa psixoloji hazırlığı. Məhbusların xarakteristikasının tərtib edilməsi.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı,2009
2. Əliyev B.H. Məhkəmə-psixoloji ekspertizası.Bakı, BDU, 1995
3. Əliyev B.H. Məhkəmə-psixoloji ekspertizasının əsasları. Bakı, BDU, 1999
4. Əliyev B.H. Məhkəmə-psixoloji ekspertizasının ümumi nəzəriyyəsi. Bakı, 1997
5. Əliyev B.H. Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri. Bakı, 1996
6. Əliyev B.H., Bayramov Ə.S. Hüquq psixologiyası. Bakı, 2012, 648 s.
7. Əliyev B.H., Səməndərova A.F. Hüquq psixologiyasının tədqiqat metodları. Bakı, 2010, 156 s. Ə
8. Əsədov B.M., Qəmərlinski R.C. Məhkəmə-psixiatrik ekspertizasının əsasları. Bakı, 2010, 304 səh.

9. Səməndərov F.Y. Cinayət hüququ. Bakı, 2017
10. Алиев Б.Г., Мамедова С.И. Социально-психологические проблемы личности несовершеннолетних правонарушителей. Баку, БГУ, 1996
11. Алиев Б.Г. Психологические методы изучения личности преступника. Баку, 1997
12. Васильев В.Л. Юридическая психология, М., 1990
13. Ганс Й. Шнайдер Криминология М., 1994
14. Еникеев М.И. Общая и юридическая психология. М, Юристь, 1996